*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 487-493*

https://doi.org/10.62837/2026.4.487

**İRADƏ RƏHMANOVA**
**Filologiya elmləri namizədi, dosent**
**Bakı Dövlət Universiteti**

# XIX YÜZİL AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATI (A.BAKIXANOVUN VƏ Q.ZAKİRİN YARADICILIĞI ƏSASINDA)

**Xülasə**

XIX əsr Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında Abbasqulu ağa Bakıxanov və Qasım bəy Zakir yaradıcılığı xüsusi bir mərhələ təşkil edir. Bu dövrdə uşaq ədəbiyyatı maarifçilik ideyaları ilə birləşərək gənc nəslin tərbiyəsi, mənəvi-əxlaqi dəyərlərin aşılanması və dünyagörüşünün zənginləşdirilməsinə xidmət edirdi.

A.Bakıxanovun əsərləri didaktik məzmunu, bilikverici mahiyyəti ilə səciyyəvi olub, xeyirlə şərin mübarizəsi, düzgün davranış, ədalət kimi keyfiyyətləri formalaşdırmağa çalışır.

Q.Zakirin mənzum hekayə və təmsilləri isə satirik üslubu və xalq gülüşü ilə vəhdət təşkil etməsi ilə seçilir. Onun əsərlərində heyvan obrazları cəmiyyətin mənfi sifətlərini tənqid, ağıl, düzlük, dostluq, sədaqət kimi müsbət keyfiyyətləri isə təbliğ vasitəsidir.

Beləliklə, hər iki sənətkarın yaradıcılığı XIX əsr Azərbaycan uşaq ədəbiyyatının ideya-estetik əsaslarını müəyyənləşdirərək, onun inkişafında mühüm rol oynamış, maarifçi və tərbiyəvi istiqamətin güclənməsinə xidmət etmişdir.

**Açar sözlər:** Uşaq ədəbiyyatı, maarifçilik, Abbasqulu ağa Bakıxanov, Qasım bəy Zakir, mənzum hekayə, təmsil

XIX əsr Azərbaycan tarixində xüsusi önəm kəsb edən mərhələlərdən biridir. Bu dövrdə baş verən ictimai-siyasi dəyişikliklər mədəniyyətə, o cümlədən ədəbiyyata da ciddi təsir göstərmişdir. Maarifçiliyin yaranması və inkişafı, Azərbaycanın əsas şəhərlərində – Bakı, Şəki, Gəncə, Şamaxı və s. yeni tipli məktəblərin təsis edilməsi, milli məktəblərin yaradılması və inkişafı uğrunda maarifçi ədiblərin yorulmaz fəaliyyəti ədəbiyyatın yeni istiqamətə yönəlməsinə, uşaq ədəbiyyatının inkişafına da öz töhfəsini verdi. Uşaqlar üçün xüsusi dərsliklər tərtib edildi, artıq uşaqlar da müstəqil oxucu kimi qəbul edilməyə, onların yaş və psixoloji səviyyəsinin nəzərə alındığı əsərlərə üstünlük verilməyə başlandı. Belə çətin və əhmiyyətli missiyanı dövrün görkəmli şəxsiyyətləri öz üzərinə götürdü. Bu baxımdan, Abbasqulu ağa Bakıxanovun xidmətləri xüsusi qeyd olunmalıdır.

A.Bakıanov Azərbaycan mədəniyyəti və ədəbiyyatı tarixində ensiklopedik biliyə malik böyük alim, tarixçi, coğrafiyaçı, astronom, şair və nasir kimi çoxşaxəli elmi-ədəbi fəaliyyətə malik nadir simalardandır. O, şair və nasir olmaqla yanaşı,

pedaqogika məsələləri ilə də məşğul olmuşdur. "Təhzibül-əxlaq" və "Kitabi-nəsihət" adlı əsərlərində irəli sürülən əxlaqi və pedaqoji məsələlər Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında mühüm əhəmiyyət kəsb etmişdir.

"Təhzibül-əxlaq" fəlsəfi əsərdir. Bu əsərdə A.Bakıxanovu narahat edən başlıca məsələ gənc nəslin düzgün tərbiyə edilməsi məsələsidir. Əsərin müqəddiməsindən sonra təqdim olunan "Etidala riayət", "Yaxşı işlərin fəziləti", "Can sağlığının qazanılması" kimi fəsillər müxtəlif əxlaq normalarının şərhinə həsr edilmişdir. A.Bakıxanov "Etidala riayət" fəslində hər şeydə etidalı - orta həddi gözləmək prinsipini irəli sürür, təbiətdən, həyatdan verdiyi örnəklər əsasında belə qənaətə gəlir ki, hər şeyi azı da, çoxu da ziyandır. "Təhzibül-əxlaq" əsərindən sonra A.Bakıxanov ikinci pedaqoji əsəri ola "Nəsihətlər"i ("Nasayeh") qələmə alır. Ədib əsərin yazılma səbəbini belə izah edir: *"Mən nə qədər axtardımsa, uşaqların təlimi üçün elə bir kitab tapa bilmədim ki, o asan və anlaşılan bir dil ilə onların əxlaq gözəlliyinə dəlalət etsin. Bəzi işlənməkdə olan kitablar o qədər qarışıq-dolaşıq ibarələrlə yazılmışdır ki, müəllimlərin çoxu özləri onları dərk edə bilmirlər. Bəzi kitablar isə o qədər uzun və pərakəndədir ki, onları anlamaq çox çətindir... Beləliklə,.. "Nəsayeh" adlı aydın və sadə anlaşılan müxtəsər bir kitab yazdım... ümid edirəm ki, bu əsər uşaqlara faydalı olub, onların tərbiyəsinə getdikcə daha artıq təsir etsin"* (1, s. 67).

Bu əsərdə 103 nəsihət toplanmışdır ki, onların əsas istiqaməti uşaqlarda mənəvi-əxlaqi keyfiyyətlərin formalaşdırılması və inkişaf etdirilməsidir. Bu nəsihətlərdə böyüklərə hörmət, valideyn və qohumlara sevgi, təvəzökarlıq, az danışmaq, lovğalıqdan uzaq durmaq, xeyirxah davranış nümayiş etdirmək kimi dəyərlər təqdim olunur.

A.Bakıxanov yalnız elmi və pedaqoji əsərlərində deyil, bədii yaradıcılığında da uşaqları nəzərə almış, onlar üçün maraqlı və ibrətamiz əsərlər yaratmışdır. Bu baxımdan, şairin mənzum hekayə və təmsilləri uşaq ədəbiyyatının dəyərli örnəkləri hesab olunur. Yaradıcılığında Nizami Gəncəvi ənənələrini uğurla davam etdirən A.Bakıxanov, ibrətamiz hekayətlərdə pedaqoji və fəlsəfi fikirlərini ifadə edir. Farsca yazdığı «Mişkatül-ənvar» külliyatında yer alan mənzum hekayə və təmsillərində uşaqlara nəfsinə qalib gəlməyi bacarmaq, zərərli vərdişlərdən uzaq durmaq, əliaçıqlıq, yardımsevərlik, sadiqlik, heyvanlara qayğı və mərhəmətlə yanaşmaq kimi sifətlər təlqin olunur.

*"Ey könül, sən ibrət götür öz başına gələndən,*
*Başqası da ibrət alsın bu yol ilə qoy səndən"*
(1, s. 146)

Bu misralar şairin əsl mətləbini ifadə edir. Başına gələnlərdən dərs çıxaran müəllif, başqalarının da bu ibrətamiz hekayətlərdən nəticə çıxarmasını, doğru yola yönlənməsini arzu edir.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 487-493*

Bu əsərdə hind əfsanəsini poetik formada işləyən A.Bakıxanov xeyirin şər, ağlın və idrakın nadanlıq, həqiqətin yalan və böhtan üzərində qələbəsini yüksək bədii ustalıqla göstərir. Burada da N.Gəncəvi yaradıcılığında olduğu kimi, ədalətli hökmdar konsepsiyası əsas yer tutur, yaratdığı müsbət və mənfi hökmdar obrazlarını qarşılaşdırmaqla müəllif ictimai-əxlaqi nəticələr irəli sürür. A.Bakıxanova görə, dövlət başçısı yüksək zəka sahibi olmalı, xalqın rifahına çalışmalı, idarəçilikdə ədalət prinsipinə söykənməli, zülm və haqsızlığa qətiyyən yol verməməlidir.

Başqa bir hekayətdə qaranlıq bir evdə dünyaya göz açan uşaq, elə orada da ustadından dərs alır. Həyatında bir dəfə də olsun günəşi görməyən uşağa müəllimi nə qədər günəşin ziyasından danışsa da, uşaq bu dünyada şamdan başqa işıqlı bir şeyin olduğuna inanmır. Nəhayət, bir gün qaranlıq evdən çölə çıxan uşaq göydə Günəşi görüb, heyran qalır. Bu məqamda şair ağlı şamın nuruna, eşqi isə yeri əbədi qızdıran Günəşə bənzədir.

Azərbaycan ədəbiyyatında alleqorik əsərlərin kökü qədim ənənələrə söykənir. Rəmzlər və dolayı ifadə tərzi ilə fikrin çatdırılması Şərq ədəbiyyatının, eləcə də, milli ədəbiyyatımızın səciyyəvi xüsusiyyətlərindəndir. Bununla belə, Azərbaycan ədəbiyyatında kamil təmsil nümunələrinə A.Bakıxanov yaradıcılığında rast gəlirik. İstər "Mişkatül-ənvar"da yer alan, istərsə də digər təmsillərində müəllifi ictimai məsələlər narahat edir. Təsadüfi deyildir ki, "Tülkü və qoyun", "Qurd və ilbiz", "Yersiz iftixar" kimi əsərlər Azərbaycan ədəbiyyatında təmsil janrının ilk mükəmməl nümunələri hesab olunur.

"Tülkü və qoyun" adlı təmsilin başlıca ideyası güclülüərin zəiflər üzərində hökmranlığı, zülmü, insan təbiətinə yaraşmayan hiyləgərlik kimi mənfi xüsusiyyətlərin ifşasıdır. Tülkü xaraktercə hiyləgər, xudbin, olsa da, fiziki baxıman aclıq onu zəif salmışdır. Hətta o qədər gücsüzləşir ki, sahibsiz bir qoyunu ovlamaq iqtidarında belə olmur. Hiyləsinin işə yaramadığını görəndə isə qoyuna hədə-qorxu gəlir, babasından qalan torpaqda otladığına görə onu cəzalandırmaq istəyir. İt ona şahid durmayıb, qoyunu müdafiə etdikdə isə ümidini qurda bağlayır. Min dil tökərək qurdu öz hiyləsinə alət edir, nəticədə, qurd ona şahid durur və özü qurbana çevrilir. Təmsil çox mənalı və ibrətamiz sözlərlə sonuclanır:

*"Gücsüzə rəhmsizcə zülm etsən,*
*İntiqam alar bir it səndən".*
(1, s. 421)

Göründüyü kimi, A.Bakıxanov Azərbaycan uşaq ədəbiyyatının dəyərli nümunələrini yaradan görkəmli simalardandır. Yaradıcılığında uşaqların mənəvi-əxlaqi tərbiyəsinə xidmət edən kifayət qədər əsərlərin olması bunu bir daha təsdiq edir. Buna görə A.Bakıxanov bədii irsi XIX əsr uşaq ədəbiyyatımızın inkişafında önəmli mərhələnin başlanğıcı kimi qiymətlidir.

Gənc nəslin təlim-tərbiyəsi, insan mənəviyyatının formalaşdırılması və uşaqların, eləcə də gənc nəslin yüksək əxlaqi keyiyyətlər qazanması baxımından

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 487-493*

yaradıcılığı mühüm əhəmiyyət kəsb edən şəxsiyyətlərdən biri də Qasım bəy Zakirdir. Onun mənzum hekayələri və təmsilləri yaradıcılığının əsasını təşkil edir. Şar yaşadığı dövrdə mövcud olan ictimai ədalətsizlikləri, zəhmətkeş xalqın həyatına xas çətinlikləri və müxtəlif sosial təbəqələrdə rast gəlinən nöqsanları birbaşa ifadə edə bilmədiyindən, fikirlərini daha çox bu janrlar vasitəsilə dolayı yolla çatdırmışdır.

Tədqiqatçılar Q.Zakirin mənzum hekayələrini mövzu baxımından bir neçə istiqamətdə qruplaşdırırlar. Akad. Feyzulla Qasımzadə şairin mənzum hekayələrini 3 yerə bölür:

*"1. Məhəbbət mövzusunda yazılan hekayələr: "Məlikzadə və Şahsənəm", "Əmirzadə, məşuq və cavan aşiq", "Aşiqin təam bişirməyi", "Aşiq və məşuq haqqında", "Zövci-axər".*

*2. Əxlaqi və tərbiyəvi hekayələr: "Tərlan və elçi", "Dəvəsi itən kəs"*

*3. Satirik-tənqidi mahiyyət daşıyan hekayələr: "Dərviş ilə qız", "Həyasız dərviş", "Əxlaqsız qazı", "Bihəya türk", "Xalqa vəz deyən, özü fisqü fücurdan çıxan biəməl aim" (2, s. 257).*

"Dərviş ilə qız" mənzum hekayəsində ruhani cildinə girən tüfeyli tiplər ifşa olunur. Dilənçilik məqsədilə qapı-qapı düşən dərviş yoxsul bir ailədə, evdə tək-tənha qalan qıza rast gələrək, qolunun zoru ilə ondan qızıl, gümüş, un və çörək tələb edir, evdə bu şeylərin tapılmadığını görəndə qanı qaralır, qaşqabağı yerlə gedir. Bu dərin məzmunlu hekayədə müəllif qızın cəsarətli çıxışı ilə dərvişin dilənçi simasını açır, onu biabır edib nüfuzdan salır. Burada dərvişə qarşı qoyulan qız çox ağıllı, diribaş bir obraz kimi diqqəti cəlb edir.

Q.Zakir mənzum hekayələrinin bir qismi də qeyd olunduğu kimi, aşiqanə mövzuda, məsnəvi şəklində qələmə alınmışdır. Onun müasir ruhda yazdığı "Zövci-axər" belə hekayələrdəndir. İkiarvadlılığın tənqidi əsərin əsas ideyasını təşkil edir. Əsərin əsl adı şairin əlyazmalarında "Bir-birinə aşiq olan qız və oğlan pinəduz" kimi qeyd edilmişdir.

"Tərlanlar və elçilər" mənzum hekayəsində Nizami Gəncəvi təsiri duyulur. Ədalətli hökmdar ideyasını əsas götürən şair hər bir vəziyyətdən ağılla, tədbirlə çıxmağın mümkün olduğunu, zülmdən, zorakılıqdan uzaq olmağı, elçiyə hörmətlə yanaşmaq kimi tarixi ənənənin yaşadılmasını, doğru məsləhətin can qurtardığını və s. nəzərə çatdırır.

Yeni mərhələnin görkəmli nümayəndələrindən olan Q.Zakir yaradıcılığında təmsil janrına xüsusi önəm vermiş, onu yüksək bədii səviyyədə çatdırmışdır. O, gənc nəslin tərbiyəsi ilə bağlı yazdığı təmsillərdə dövrün ictimai nöqsanlarını açıq və dolayısı üsulla tənqid etmiş, insan xarakterlərini heyvan surətləri vasitəsilə simvolik şəkildə təqdim etmişdir. Bu əsərlərdə yaltaqlıq, acgözlük, nadanlıq və digər mənfi xüsusiyyətər inandırıcı süjetlər əsasında ifşa olunur, tənqid hədəfinə çevrilən obrazlar isə satirik üslubla gülünc vəziyyətə salınır.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 487-493*

Şair müdrik xalq kəlamlarından, atalar sözü və məsəllərdən də məharətlə, yaradıcı şəkildə istifadə etmişdir. Prof. Qara Namazov Q.Zakir təmsillərinin özünəməxsusluğunu belə səciyyələndirir: *"...şair burada xalq yaradıcılığından aldığı mövzuları epik səpkidə nağıl edir, onun həyatdakı müqabilini oxucusuna xatırladır. Bu da satirik təmsillərin həyatla daha bağlı olduğunu sübut edir"* (4, s. 86).

Q.Zakir mövzusunu həyatdan götürdüyü təmsillərində müxtəlif heyvanlar vasitəsilə cəmiyyətdə gördüyü naqis cəhətləri tənqid edir, uşaq və gənclərin düzgün tərbiyələnməsinə çalışırdı. Bu təmsillərdə hiyləgər, xudbin, acgöz heyvanlarla yanaşı, ağıllı, tədbirli, xeyirxah, gözütox heyvan obrazları da var ki, onları qarşılaşdırmaqla şair mənfi sifətlərin insanı uçuruma, məhvə, yalnızlığa apardığını real bədii lövhələrlə əks etdirir. "Dəvə və eşşək", "Tülkü və şir", "Tülkü və qurd", "Aslan, qurd və çaqqal", "Xain yoldaşlar haqqında", "Sədaqətli dostlar haqqında" təmsilləri bu baxımdan səciyyəvidir.

"Dəvə və eşşək" təmsilində Q.Zakir kiçik oxucularına böyüklərin xeyirxah, müdrik məsləhətlərinə diqqətlə yanaşmağı tövsyə edir. Bu əsərdə lovğalıq və düşünülməmiş davranışların insanı necə gülünc vəziyyətə saldığı və acı nəticələrə səbəb olduğu tənqidi planda təqdim edilir.

Q.Zakir yeni nəslin dostluqda, yoldaşlıqda sadiq, yardımsevər, mərhəmətli böyüməsini arzulayır, təmsillərində bu mövzuya xüsusi önəm verirdi. Təsadüfi deyil ki, şair həm xain, həm də sadəqətli dostlar haqqında alleqorik şeirlər yazmışdı. "Sədaqətli dostlar haqqında" təmsilində tısbağa, kəsəyən, qarğa və ahu dostluqda, ülfətdə sadiqliyi, dostdan hər daim xəbərdar olmağı, dar gündə tanınan dostları təmsil edirsə, "Xain yoldaşlar haqqında" şeirində dəvə, ilan, tısbağa və ahunun timsalında nəfsinə məğlub olan, acgöz, hiyləgər insanlar tənqid olunur, dəvə isə ağlı və tədbiri ilə "dostların" aralarında bölə bilmədiyi azuqəyə sahib olur:

"Bir adam ki qoya hiylə binası,
Aqibət özünə dəyər xətası".
(5, s.121)

Araşdırmadan belə nəticəyə gəlmək olar ki, Q.Zakir XIX əsrdə inkişaf etməkdə olan Azərbaycan uşaq ədəbiyyatının folklor ənənələri üzərində daha da möhkəmlənməsinə rəvac verən dəyərli əsərlər yaratmışdır. Onun mənzum hekayə və təmsilləri kiçik oxuculara həyat haqqında bilgilər verməkdə, təbiət və cəmiyyət barədə təsəvvürlər formalaşdırmaqda, eyni zamanda, ana dilinin zəngin söz ehtiyatının qorunmasında və gənc nəslə ötürülməsində böyük əhəmiyyətə malikdir. Təsadüfi deyil ki, bu əsərlər bu gün də öz didaktik və bədii-estetik qiymətini qoruyub saxlayır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Bakıxanov A. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005, 488 s.
2. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Elm və təhsil, 2017, 552 s.
3. Məmmədov X. XIX əsr Azərbaycan uşaq ədəbiyyatı, Bakı: 1992.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 487-493*

4. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Bakı Universiteti, 2007, 444 s.
5. Zakir Q. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005, 400 s.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2026*
*Səh. 487-493*

**Ирада Рахманова**

## АЗЕРБАЙДЖАНСКАЯ ДЕТСКАЯ ЛИТЕРАТУРА XIX ВЕКА (НА ОСНОВЕ ТВОРЧЕСТВА А.БАКЫХАНОВА И К.ЗАКИРА)

**Резюме**

В формировании Азербайджанской детской литературы XIX века особую роль сыграло творчество Аббасгулу-аги Бакыханова и Касыма бея Закира. В этот период детская литература объединялась с идеями просвещения, служила воспитанию подрастающего поколения, привитию духовно-нравственных ценностей и обогащению мировоззрения.

Произведения А.Бакыханова отличаются дидактическим содержанием и познавательным характером; в них стремятся формировать такие качества, как борьба добра со злом, правильное поведение и справедливость.

Сказки в стихах и басни К.Закира выделяются своим сатирическим стилем и единством с народным юмором. В его произведениях животные выступают как олицетворения человеческих черт: через их образы писатель критикует отрицательные стороны общества и пропагандирует такие положительные качества, как разум, честность, дружба и верность.

Таким образом, творчество обоих писателей определило идейно-эстетические основы азербайджанской детской литературы XIX века, сыграло значительную роль в её развитии и способствовало укреплению просветительского и воспитательного направления.

**Ключевые слова:** детская литература, просвещение, Аббасгулу ага Бакыханов, Касым бей Закир, сказки в стихах, басня

**İrada Rahmanova**

## AZERBAIJANI CHILDREN'S LITERATURE OF THE 19TH CENTURY (BASED ON THE WORKS OF A. BAKIKHANOV AND K. ZAKIR)

**Summary**

In the formation of Azerbaijani children's literature of the 19th century, the works of Abbasgulu aga Bakikhanov and Kasim bey Zakir played a special role. During this period, children's literature was closely connected with the ideas of enlightenment, serving the education of the younger generation, instilling spiritual and moral values, and enriching their worldview.

The works of A. Bakikhanov are distinguished by their didactic content and educational character; they aim to cultivate qualities such as the struggle between good and evil, proper behavior, and justice.

The narrative poems and fables of K. Zakir stand out for their satirical style and unity with folk humor. In his works, animals appear as personifications of human traits: through their images, the writer criticizes the negative aspects of society and promotes such positive qualities as reason, honesty, friendship, and loyalty.

Thus, the creative legacy of both writers defined the ideological and aesthetic foundations of Azerbaijani children's literature of the 19th century, played a significant role in its development, and contributed to strengthening its educational and enlightening direction.

**Keywords:** children's literature, enlightenment, Abbasgulu aga Bakikhanov, Kasim bey Zakir, narrative poem, fable

**Rəyçi: prof. Almaz Məmmədova**